**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**

**S Ə R Ə N C A M**

**№ 324s**

*Bakı şəhəri, 11 dekabr 2012-ci il*

"Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 19 dekabr tarixli 546 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 6 fevral tarixli 24s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulmuş 5774100000,0 (beş milyard yeddi yüz yetmiş dörd milyon yüz min) manat vəsaitin sifarişçi təşkilatlar və obyektlər üzrə dövlət sifarişi kimi bölgüsü"ndə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinə 25 rayon sahə baytarlıq məntəqəsinin tikintisi məqsədi ilə ayrılması nəzərdə tutulmuş vəsaitdən 135000,0 (yüz otuz beş min) manat məbləğində edilmiş qənaət hesabına Zaqatala rayonunun Əliabad kəndində sahə baytarlıq məntəqəsi binasının tikintisi, 26 ədəd sahə baytarlıq məntəqəsinin avadanlıq və inventarla təchiz olunması üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinə 135000,0 (yüz otuz beş min) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci hissəsi ilə ayrılan vəsaitin müəyyən olunmuş qaydada ödənilməsini təmin etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**